# “PARAM-PARÇA İLLƏR...”in POETİK SALNAMƏSİ

**“Xalq qəzeti”nin 27 Aprel, 2022-ci il sayında Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasından 2022-ci ilin Dövlət Mükafatlarına təqdim edilmiş işlər haqqında AZƏRTAC-a bildirilən məlumat dərc edilmişdir.**




Adı çəkilən məlumatda Azərbaycanın xalq şairi Vahid Əzizin də “Param-parça illər...” (“Qarabağ dəftərlərindən” seçilmişlər, 1988-2021, seirlər və poema), “ Azərnəşr” Bakı-2021, 239 s. adlı kitabına rast gəldim. Kitabın naşiri olduğu Azərbaycan Dövlət Nəşriyyatı kitabı Ədəbiyyat sahəsində Dövlət Mükafatına təqdim etmişdir. Əlbəttə, Vahid Əzizin bu kitabı 30 ilə yaxın bir dövrdə zəbt olunmuş torpaqlarımız haqqında 1988-ci ildən başlayaraq bu torpaqlar uğrunda, qəhrəman ordumuzun və xalqımızın mübarizəsi barədə yazılmş poetik salnamədir.

Kitabın sorağını alan kimi onu əldə etdim. Düzü çoxdan idi ki, işğal olunmuş torpaqlarımız haqqında belə bir möhtəşəm kitabla rastlaşmamışdım. Son illərdə çap edilən oxucu düşüncəsinə hesablanmış boz ədəbiyyat nümunələri həm cəmiyyəti, həm də oxucuları dəyərli kitablardan uzaq salmışdı. Şair Vahid Əzizin “Param-parça illər...” kitabını bir nəfəsə oxuduqdan sonra belə qənaətə gəldim ki, bəli, hələ də poeziyası ilə insanların qəlbini fəth edən belə şairlərin “külüngünün” səsi-sədası gəlməkdədir.

Qədim və klassik Azərbaycan poeziyası üzərində köklənən və körüklənən Vahid Əziz poeziyası öz oxucularını heyrətləndirməkdədir. “Param-parça illər...” kitabının əsas qayəsini Azərbaycan torpağına əbədi sevgi, uzun müddət zəbt olunmuş torpaqlarımızın fəryadı, gənclərin Vətən sevgisi, müzəffər ordumuzun Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında apardığı haqq mübarizəsinin poetik inciləri xalqın döyüşkən yaddaşını özünə qaytarır:

*Qazan, Azadlığı yaşat, qəhrəman,*
*Ucalt Vətən oğlu, ucalt Bayrağı.*
*Canı - şəhid qanı, kainat ümman,*
*Babək qılıncıdır əl tutacağı.*

Kitabı vərəqlədikcə və oxuduqca oxucu heyrətlənməyə bilməz. Şair düşüncəsinin xalq yaddaşından süzülüb gələn və onun qələmində poetik misralara çevrilən bu incilər əlbəttə, şair qəlbinin kövrək piçıltılarıdır.

Vahid Əziz bir vətənpərvər şair olaraq, özü də Qarabağ müharibəsi veteranıdır. O, bütün ağrı-acıları öz gözləri ilə görmüş, işğal altında olan torpaqlarımızın harayına öz şair qəlbi ilə haray vermiş, gecə-gündüz qəhrəman əsgərlərimizin Vətən sevgisini, torpağa məhəbbəti öz şair qələmi ilə tərənnüm etmişdir:

*Bayraq - qibləgahdı, inam yeridi,*
*Önündə diz çöküb gərək öpülsün.*
*Şəhidin üstünə o salınır ki,*
*Vətəndən arxayın uyuya bilsin.*

“Param-parça illər ...” kitabını oxuduqca adam doğrudan da şairin qüdrətinə heyran qalır, şəhidliyə, torpağa, Vətənə, Ali Baş Komandanın mübarizlik əzminə həsr etdiyi misralar oxucunu daim düşündürür və onu mənsub olduğu Azərbaycan xalqının tarixi inam yaddaşına qaytarır:

*Dövran param-parça elədi Yurdu,*
*Düşmənə qəsbkar dayandı arxa,*
*Baxma ki, “Tərtərdə” qollar qurudu,*
*And olsun müqəddəs göyə, torpağa -*
*Su bir də gələcək su gələn arxa!*

İkinci Qarabağ müharibəsindən cəmisi iyirmi gün qabaq yazılmış “Su bir də gələcək su gələn arxa” adlı bu şeirdə Vahid Əziz təkcə özünün deyil, bütün xalqımızın mütləq Qələbəmizə inamını və bu Qələbəni qazanmaq üçün əzmini əxz etdirir!

Vahid Əziz bütün qayəsi, şəxsiyyəti, ləyaqəti ilə milli şairdir. Həmişə dostlarla ədəbiyyat söhbətlərində mən onu Çilinin azadlıq şairi Pablo Neruda ilə müqayisə edəndə dostlarımız da bu fikirlə razılaşırlar ki, bəli, Vahid Əzizin yaradıcılığını dürüst tərcümə etsək, onu dünyaya təqdim etsək əlbəttə, o, Pablo Neruda ilə bir sırada dayanar və dünya xalqlarının sevimlisinə çevrilər. Azadlıq, istiqlal şairləri dünyanın fikir mərkəzlərində təbliğ olunmaqdadırlar. “Param-parça illər ...” kitabını orijinaldan tərcümə etsələr inanıram ki, kitab dünyanın ali mükafatlarına layiq görülər. Kitab təzəcə çapdan çıxmasına baxmayaraq, onun sorağını alıb, oxumaq istəyənlər çoxdur. “Param-parça illər...” kitabını əldə etmək istəyən qədirbilən oxucular Vahid Əziz poeziyasının əsl xiridarlarıdır.

Şairin kitaba daxil etdiyi “Heyrət secdəsi” poeması da monimental düşüncə dəyərlərini yenə də tarixi Qələbəmizin heç bir beynəlxalq təşkilatların bilərəkdən həll edə bilmədiyi, yalnız xalqımızın ümumi güc birliyinin təcəssümünü poetik misralarla aktuallaşdırır:

*Siz deyin, a köhnə dünya görənlər.*
*Paris tədbirini necə görəcək,*
*kişini-kişiyə ərə verənlər,*
*Bizə Qarabağı necə verəcək?*

“Param-parça illər ...” kitabını vərəqlədikcə ondan ayrılmaq istəmirsən. Çünki kitabın aşıladığı Vətən sevgisi, torpaq sevgisi gənc ədəbi nəslin manifestini müəyyənləşdirir. Kitabda şairin üz tutduğu cənab Ali Baş Komandanın qətiyyətli mübarizəsi, bir lider kimi dünya bədxahlarının avantürist suallarına tutarlı cavablar verməsi iki Türk liderinin İlham Əliyevlə, Rəcəb Tayyib Ərdoğanın türk ellərinə, türk torpaqlarına əbədi sadiqliyini bir daha sübut edir və çağdaş “iki Fatehi var indi dünyanın” anlamına gəlir:

*Rədifin kim pozar Tanrı yazanın,*
*Hər sözdə cəsarət, mərhəmət, inam,*
*İki Fatehi var indi dünyanın,*
*Biri Ərdoğandı, o biri - İlham!*

Şair Vahid Əzizin yurd, elat, oba-oymaq sevgisi tükənmir. O, yaşa dolduqca, müdriklik sərhədlərini dördnala keçdikcə, yaddaşında yaşatdığı ağır-batman ellərimiz, füsunkar Aşıq Ələsgər ruhu, ustadın özü də şairin poeziyasına nur səpir:

*Yaz başında çəmənləri göycədi,*
*Zəngəzurdu, Dərələyəz, Göyçədi.*
*O, məzarda, canım burda göynədi,*
*O yerlərə canı-dildən bağlıyam,*
*Ələsgərnən bir torpağın oğluyam.*

*Ustadıma baş çəkəcəm Zəfərnən,*
*Göyçə gölü qovuşanda Xəzərnən,*
*Könlümdəki incəliknən, təpərnən,*
*Diz çökəcəm, məzarına ağlayam,*
*Ələsgərnən bir torpağın oğluyam...*

Ustadı Aşıq Ələsgərə üz tutub, ağır-batman ellərimizin də, hər gülün, çiçəyin, təbiətin qayğısına qalır və ürək çırpıntılarını poetik misralara çevirir. Və Vahid Əzizin haçansa dədə-baba şəhərimiz olan İrəvana yenidən sahib çıxacağımızın inam simvolu kimi səslənir.

“Param-parça illər...” kitabı min nüsxə tirajla çap olunub. Əlbəttə, bu, dəyərli oxucular üçün çox azdır. Kitab idarə, müəssisələrə, məktəblərə, universitetlərə yayılmalı, onun müzakirəsi keçirilməlidir. Gənc ədəbi nəslin bundan sonra da formalaşmasında, mətinləşməsində, ədəbi-bədii düşüncəsinin, vətəndaşlıq mövqeyinin inkişafında böyük köməyi olacaq. Bu kitab həm də uzun müddətdir ki, cəmiyyətimizdə kitaba olan soyuq məmur münasibətini aradan qaldıracaq. “Param-parça illər...” kitabı yaşadığımız çağın ədəbi hadisəsinə çevrilməklə yanaşı, insanların tarixi-poetik yaddaşında rezonans yaratmaqdadır...

“Param-parça illər...” kitabını əldə edib vərəqləyib oxuyandan sonra XIX əsrdə yaşamış alman kimyaçısı Völerin Azərbaycanımızın Şuşa şəhərində anadan olmuş, nitrobenzoldan anilinin alınması reaksiyasını kəşf etməklə dünyada boya sənayesinin əsasını qoyan həmyerlimiz Zinin haqqında dediyi bir fikri yadıma düşdü: “Zinin nitrobenzoldan anilinin alınma reaksiyasından başqa heç bir şey etməsəydi belə adı tarixə qızıl hərflərlə yazılacaqdı”. Bu fikri mən eyni ilə Vahid Əzizin hələ bu kitab işıq üzü görməmişdən əvvəl yazdığı “Mənə yüz il ömür arzulamayın” şeiri ilə əlaqədar demək istəyirəm: “Vahid Əzizin indiyə kimi yazdığı 15 mindən artıq seirini, 10-dan çox şeirlər kitabını, 15 poema və s. bildiyim və bilmədiyim əsərlərini, həmçinin hələ işıq üzü görməyən şeirlərini kənara qoysaq, təkcə “Mənə yüz il ömür arzulamayın” seirinə görə adı tarixə qızıl hərflərlə yazılacaqdır. Hələ vətənpərvərlik ruhunda yazılmış “Param-parça illər...” kitabını demirəm...

**İsmayıl Əliyev,**
**Bakı Dövlət Universitetinin professoru**